


# Güneydə Azərbaycan ruhunu qoruyan şəhər

***Azərbaycanımızın bir çox şəhəri kimi Binab şəhəri də çox qədim tarixə arxalanmaqdadır. Bununla belə, Binab şəhərinin qədim tarixi haqqında ciddi və əhatəli tədqiqat aparılmadığı üçün faktlara əsaslanan bir söz demək o qədər də asan deyil. Lakin bu şəhərdə tapılan tarixi əsərlərə və sübutlara əsaslansaq, şəhərin tarixi və sivilizasiyası altı min il əvvələ gedib çıxır. Qara Təpə, Qara Qoşun, Qara Çubuq Təpəsi, Qızlar Qalası, Ağacarı Təpəsi, Siçan Təpəsi, Pus Təpəsi kimi tarixi yerlərdən tapılan artefaktlar, qədim Səvr kəndində qaya memarlığının mövcudluğu, Qoyunlar və Çaxmaqlar mağaraları bu torpaqların tarixdən əvvəlki dövrlərdə məskunlaşdığından xəbər verir. Bu torpaqlarda qədim kurqanların, eramızdan əvvəl I-IV minilliyə aid yeraltı əşyaların olması, müxtəlif dövrlərə, xüsusilə Səfəvilər dövrünə aid məscid və digər qədim abidələrin, Moğol Elxanlığı (1256-1335) dövrü qəbiristanlığının qalıqlarının müxtəlif sülüs, nəsx və kufi yazılarının olması bu rayonun çox qədim bir tarixə malik olmasını göstərir...***



***Güney Azərbaycanın Binab şəhəri Təbriz şəhərindən 119 kilometr aralıda yerləşir. Təxminən 25 kvadrat kilometr əraziyə malik Binab şəhəri Şərqi Azərbaycan əyalətinin cənub-qərbində, Təbriz-Marağa-Kürdüstan və Təbriz-Qərbi Azərbaycan əsas marşrutu üzərində yerləşir. Bu şəhər Səhənd dağının yamacında, Sufiçayın yanında və Urmiya gölünün sahilində yerləşir. Qeyd etmək lazımdır ki, İranda ölkə inzibati ərazi bölgüsünə görə Güney Azərbaycan bölgəsi Qərbi Azərbaycan, Şərqi Azərbaycan, Ərdəbil, Zəncan, Əlburz, Qəzvin və Həmədan əyalətlərinə (ostanlarına) bölünür. Binab şəhəri əslində Binab rayonunun (şəhristan) mərkəzi sayılaraq bu rayonun 29 kəndini öz ətrafında birləşdirir.***

2017-ci ilin siyahıyaalınmasına əsasən, Binab şəhərinin əhalisi 87 min nəfərdən çox, Binab rayonunun əhalisi isə 129 795 nəfərə bərabər olub. Azərbaycanın qədim şəhərlərindən olan Binabın əhalisinin böyük əksəriyyəti müsəlman şiədir və Azərbaycan türkcəsində danışır.

Çox münbit torpağa malik olması, Sufiçay kimi dolu çayların yaxınında yerləşməsi və alnının təri ilə çörək qazanmağı özünə şərəf bilən insanların varlığı bu şəhəri Güney Azərbaycanın yaşıl və məhsuldar şəhərlərindən birinə çevirib. Üzüm, alma, badam, qoz və s. Binab bağlarının məhsullarındandır. Bu ərazidə buğda, soğan və sarımsaq da çox əkilir.

## Binabın qədim zamanlardan çağdaş dövrə qədər tarixinə qısa nəzər

Azərbaycanımızın bir çox şəhəri kimi Binab şəhəri də çox qədim tarixə arxalanmaqdadır. Bununla belə, Binab şəhərinin qədim tarixi haqqında ciddi və əhatəli tədqiqat aparılmadığı üçün faktlara əsaslanan bir söz demək o qədər də asan deyil. Lakin bu şəhərdə tapılan tarixi əsərlərə və sübutlara əsaslansaq, şəhərin tarixi və sivilizasiyası altı min il əvvələ gedib çıxır. Qara Təpə, Qara Qoşun, Qara Çubuq Təpəsi, Qızlar Qalası, Ağacarı Təpəsi, Siçan Təpəsi, Pus Təpəsi kimi tarixi yerlərdən tapılan artefaktlar, qədim Səvr kəndində qaya memarlığının mövcudluğu, Qoyunlar və Çaxmaqlar mağaraları bu torpaqların tarixdən əvvəlki dövrlərdə məskunlaşdığından xəbər verir. Bu torpaqlarda qədim kurqanların, eramızdan əvvəl I-IV minilliyə aid yeraltı əşyaların olması, müxtəlif dövrlərə, xüsusilə Səfəvilər dövrünə aid məscid və digər qədim abidələrin, Moğol Elxanlığı (1256-1335) dövrü qəbiristanlığının qalıqlarının müxtəlif sülüs, nəsx və kufi yazılarının olması bu rayonun çox qədim bir tarixə malik olmasını göstərir.

Bölgənin çox daha qədim bir tarixə malik olmasını heç bir tarixi abidə Səvr kəndindəki qədim qaya memarlığı kimi sübut edə bilməz. Bunun üçün də bu möhtəşəm tarixi kənd haqqında daha ətraflı danışmaq lazımdır. Türkiyədəki Kapadokya kimi dünyanın bir çox yerində çox qədim tarixə malik qaya memarlığına şahid oluruq. Ancaq dünyanın digər yerlərindən fərqli olaraq, Güney Azərbaycanda qaya arxitekturalı kəndlərin səciyyəvi cəhəti ondan ibarətdir ki, oradakı qaya memarlığına malik kəndlərdə hələ də məskunlaşma var, insanlar yaşayır. ***Bu haqda daha əvvəlki yazılarımızın birində geniş bilgi vermişik. Əslində Səvr kəndində gözə çarpan qaya memarlığı bir çox cəhətdən Kəndivan kəndindəki qaya memarlığına bənzəməkdədir. Ancaq Səvr kəndi yuxarıdakı yazıda tanıtdırdığımız Hiləvər kəndlərinin də bəzi xüsusiyyətlərinə malikdir. Belə ki, Hiləvər kəndində olduğu kimi, burada da evlər, ümumiyyətlə, yer altında qazılıblar, amma Hiləvər kəndindən fərqli olaraq, Kəndivan kəndindəki kimi burada da əhali yaşamaqdadır. Demək, burada da Hiləvərdən fərqli olaraq, Kəndivan kəndi kimi tarix hələ sona çatmayıb və davam etməkdədir.***

Binab şəhərinin 24 kilometrliyində yerləşən tarixi Səvr kəndinin bir neçə min illik yaşı var və Şərqi Azərbaycan əyalətinin tarixi və canlı kəndlərindən biridir. Sakinlərinin evləri ibtidai alətlərdən istifadə etməklə dağın qoynunda qazılıb. Bu kənd Güney Azərbaycanın ən yüksək dağlardan biri sayılan və Təbriz ilə Marağa kimi şəhərləri öz ətəyində tutan Səhənd dağının güney yamaclarında yerləşir, şimaldan Tutaxana turist kəndi, qərbdən isə Əcəbşer şəhərinin kəndləri ilə həmsərhəddir. Kənd təbii yerləşimi baxımından dar dərələri olan dağlıq ərazidə yerləşir. Kəndin bu relyefi nərdivan formasında tikililərin tikilməsinə, qaya memarlığının yaranmasına səbəb olub.

***Arxeoloq və tarixçilərin fikrincə, bu kənd təxminən 3000-3500 il əvvələ gedib çıxır və qaya memarlığının şah əsərlərindən sayılır. Əslində bu kənd bir vaxtlar yeraltı kənd olub, lakin zaman keçdikcə sakinləri yerin üstündə evlər tikiblər. Hazırda bu kənddə tərk edilmiş 27 yeraltı ev qalıb və bu evlərdə hələ də yaşamaq mümkündür. Tədqiqatçıların fikrincə, dağlarda və qayalarda evlərin yaradılması düşmənlərdən və ya vəhşi heyvanlardan qorunmaq üçün imiş. Səvrin qayalı kompleksi memarlıq formasına və mağaraya bənzər görünüşünə görə Mitra məbədlərini (burada oxuyun: https://apa.az/guney-azerbaycan/gunese-sitayis-edenlerin-seheri-tufarqan-guney-azerbaycani-tani-900074 ) xatırladır...***

***Bölgənin çox daha qədim bir tarixə malik olmasını heç bir tarixi abidə Səvr kəndindəki qədim qaya memarlığı kimi sübut edə bilməz. Bunun üçün də bu möhtəşəm tarixi kənd haqqında daha ətraflı danışmaq lazımdır. Türkiyədəki Kapadokya kimi dünyanın bir çox yerində çox qədim tarixə malik qaya memarlığına şahid oluruq. Ancaq dünyanın digər yerlərindən fərqli olaraq, Güney Azərbaycanda qaya arxitekturalı kəndlərin səciyyəvi cəhəti ondan ibarətdir ki, oradakı qaya memarlığına malik kəndlərdə hələ də məskunlaşma var, insanlar yaşayır. Bu haqda daha əvvəlki yazılarımızın birində geniş bilgi vermişik. Əslində Səvr kəndində gözə çarpan qaya memarlığı bir çox cəhətdən Kəndivan kəndindəki qaya memarlığına bənzəməkdədir. Ancaq Səvr kəndi yuxarıdakı yazıda tanıtdırdığımız Hiləvər kəndlərinin də bəzi xüsusiyyətlərinə malikdir...***

**(ardı gələn sayımızda)**